

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 115 (21.016)

19 iyun 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev xarici işlər naziri Sergey Lavrovun ölkəmizə bu səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını vurğuladı, Azərbaycan ilə Rusiyanın bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini söylədi. Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə ötənilki səfərinin münasibətlərimizin inkişafına təkan verdiyini qeyd etdi, həmin səfər zamanı aparılan danışıqların və fikir mübadiləsinin əməkdaşlığımızın sonrakı inkişafı baxımından çox səmərəli olduğunu bildirdi.

Xarici işlər naziri Sergey Lavrov Rusiya Prezidenti Vladimir Putinin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı. O bildirdi ki, Azərbaycan ilə Rusiya regional və beynəlxalq səviyyədə uğurla əməkdaşlıq edir və xarici işlər nazirlərinin bugünkü görüşündə də bu barədə müzakirələr aparılmışdır.

Dövlətimizin başçısı Prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidenti Herviq Van Staanı qəbul etmişdir.

## 2014-cü ilin yanvar-may ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

İqtisadi inkişafın əsas göstəricisi kimi 783 milyon 975 min manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2013-cü ilin yanvar-may ayları ilə müqayisədə 2,5 faiz çoxdur. Ümumi Daxili Məhsulun sahə strukturunda ilk yeri sənaye sahəsi tutmaqdadır.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2013-cü ilin yanvar-may ayları ilə müqayisədə 2,3 faiz artaraq 1797,3 manata (2291,6 ABŞ dollarına) çatmışdır.

* * *

Muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 377 milyon 93 min manata yaxın həcmdə məhsul istehsal edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 1,7 faiz üstələmişdir.

* * *

Dinamik infrastruktur quruculuğu çərçivəsində əsas kapitala 412 milyon 961 min manat həcmində investisiya yönəldilmişdir. 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə istifadə edilmiş investisiyanın həcmi 1,4 faiz artmışdır.

* * *

İnformasiya cəmiyyətinin inkişafına paralel olaraq davamlı artan informasiya və rabitə xidmətlərinin həcmi 18 milyon 792 min manatdan çox olmuşdur ki, bu da 2013-cü ilin müvafiq



dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 15 milyon 762 min manata yaxın olmuş və bir il öncəki göstəricini 1,1 faiz üstələmişdir.

* * *

İqtisadi inkişafın prioritet istiqaməti kimi ərzaq təhlükəsizliyinin təminatı üzrə səmərəli ərzaq balansı formalaşdırılmaqdadır. Bu dövr ərzində 42 milyon 621 min manatdan çox həcmdə kənd təsərrüfatı məhsulu istehsal olun-



muşdur ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 6,3 faiz üstələmişdir. Cari ilin yanvar-may aylarında muxtar respublikada 7,6 min ton ət (diri çəkidə), 33,6 min ton süd istehsal edilmiş, 2013-cü ilin yanvar-may ayları ilə müqayisədə ət istehsalı 2,6 faiz, süd istehsalı 0,3 faiz artmışdır.

* * *

Əhalinin artan gəlirlərinin davamlılığının təmin olunması və onun inflyasiyadan qorunması üzrə səmərəli mexanizmlərin tətbiqi ardıcıl təşviq olunmaqdadır. Cari ilin yanvar-may aylarında muxtar respublikada əhalinin gəlirləri 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz artaraq 616 milyon 264 min manat, onun hər bir nəfərə düşən həcmi isə 2 faiz yüksələrək 1412,8 manat təşkil etmişdir.

* * *

İqtisadi siyasətin əsas hədəflərindən biri kimi əməkhaqlarının davamlı artımı təşviq olunur və bu məqsədlə, ilk növbədə, sahibkarlığın inkişafına ciddi dəstək verilir. 2014-cü ilin yanvar-may aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 380,2 manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,6 faiz artmışdır.

* * *

Dərinləşən iqtisadi münasibətlərə paralel olaraq bank işi təkmilləşməkdədir. 1 iyun 2014-cü il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 28271-ə



çatmışdır ki, bunun da 25353-ü və ya 89,7 faizi aktiv hesablardır. 2014-cü ilin yanvar-may ayları ərzində açılmış 7992 bank hesabının 7934-ü və ya 99,3 faizi aktiv hesablardır.

* * *

İqtisadi inkişafın yüksək templəri, öz növbəsində, xarici ticarət həcminin və onun coğrafiyasının genişlənməsini təmin etməkdədir. Ötən dövr ərzində muxtar respublikanın 166 milyon



635 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi olmuşdur ki, bu da bir il öncəki göstəricini 0,4 faiz üstələmişdir. İxracın həcmi son bir il ərzində 14,5 faiz artaraq 119 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 71 milyon ABŞ dollarından çox həcmdə müsbət saldo yaranmışdır.

* * *

Sahibkarlıq strukturlarının kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2014-cü ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 23 milyon 357 min manatdan çox həcmdə kreditlər verilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 15,6 faiz çoxdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*"Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının müdafiəsi və təminatlar sistemi" mövzusunda konfrans keçirilmişdir.*

## Sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, onların cəmiyyətə inteqrasiyası və təhsilə cəlbi diqqət mərkəzindədir

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova müstəqil Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının qorunmasının daim diqqət mərkəzində olduğunu bildirmişdir.

Qeyd olunmuşdur ki, 2007-ci il iyunun 18-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin sərəncama əsasən, hər il iyun ayının 18-i ölkəmizdə "İnsan Hüquqları Günü" kimi qeyd olunur.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi və siyasi islahatlar nəticəsində ölkəmizdə sosial siyasətin möhkəm hüquqi əsasları yaradılmışdır. Sosial siyasətin hüquqi tənzimlənməsinin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində respublikamızda ardıcıl və səmərəli tədbirlər həyata keçirilmiş, insanların sosial hüquqlarının qorunmasına və sosial vəziyyətinin yaxşılaşdırılmasına diqqət daha da artırılmışdır. Bu çərçivədə sağlamlıq imkanları məhdud uşaqlara xüsusi qayğı göstərilir.

"Sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının kompleks şəkildə təmin edilməsi, onların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası istiqamətində görülən işlər muxtar respublikada da uğurla davam etdirilir", – deyən Ülkər Bayramova qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqların təhsil hüquqlarının müdafiəsində səmərəli mexanizmin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" – uşaq hüquqlarının müdafiəsinin səmərəli mexanizmi kimi" mövzusunda geniş məruzə ilə çıxış edərək demişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. "Əlilliyin və uşaqların sağlamlıq imkanlarının məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanuna əsasən, dövlət onların təhsil alması və peşə hazırlığı keçməsi üçün lazımi şəraitin yaradılmasına təminat verir. Sağlamlıq imkanları məhdud uşaqların və 18 yaşından yuxarı əlillərin təhsili və peşə hazırlığı müxtəlif formalarda,



o cümlədən evdə təhsil və fərdi təhsil formalarında həyata keçirilir.

Hazırda Naxçıvan Muxtar Respublikasında təhsilin məzmunca yenilənməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu gün muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası üzrə həyata keçirilən tədbirlər onların cəmiyyətə inteqrasiyası və təhsili üçün əlverişli mühit yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"ndan ətraflı söhbət açan Cəlil Rüstəmov qeyd etmişdir ki, proqramda əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarının təmin olunması, inklüziv və məsafədən, yəni distant təhsilə keçidə zəmin hazırlanması, onların sosial reabilitasiyasının gücləndirilməsi, cəmiyyətə inteqrasiyalarına nail olunması kimi bir sıra digər mühüm məsələlərin reallaşdırılmasıdır. Digər mühüm bir məqam ondan ibarətdir ki, dövlət proqramının tədbirlər planı 15-ə yaxın dövlət orqanının qarşısında konkret vəzifələr müəyyən etmişdir.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Vüqar Quliyevin "Sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının məhkəmə müdafiəsi və alternativ müdafiə sistemləri", Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovanın "Sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin edilməsi və onların cəmiyyətə inteqrasiyası", Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərovun "Uşaq hüquqlarının pozulmasına görə məsuliyyət" mövzularında məruzələri dinlənilmiş, həmin məruzələr ətrafında çıxışlar olmuşdur.

Konfransa Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

## Komissiya dövlət qulluqçuları üçün seminarları davam etdirir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluqçularının etik davranış qaydalarına riayət etmələrinə nəzarətin artırılması və dövlət orqanlarında kadr qurumlarının işinin gücləndirilməsi məqsədilə Şərur rayonunda maarifləndirici seminar keçirmişdir. Seminarı giriş sözü ilə açan komissiyanın sədri Etibar Musayev dövlət qulluğuna qəbulun əsas prinsipləri və komissiyanın həyata keçirdiyi tədbirlər haqqında seminar iştirakçılarına məlumat vermişdir. Qeyd olunmuşdur ki, dövlət qulluğuna qəbulun müsabiqə əsasında aparılması qaydaları "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsində öz əksini tapmışdır. Müsabiqə vasitəsi ilə inzibati vəzifəyə qəbul edilmiş şəxs staj və sınaq müddətini müvəffəqiyyətlə başa vurduqdan sonra daimi dövlət qulluğuna qəbul edilə bilər.

Etibar Musayev çıxışında onu da qeyd etmişdir ki, dövlət qulluqçusu statusuna malik olan hər bir şəxsin üzərinə mühüm vəzifələr düşür. Belə ki, dövlət qulluqçusu qanunvericiliyi dərindən öyrənməli, ixtisası üzrə biliklərini tətbiqetmə bacarığına malik olmalı, tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlmək üçün səy göstərməlidir. Bununla yanaşı, hər bir dövlət qulluqçusu "Etik davranış qaydaları haqqında" Qanunun tələblərinə əməl etməli, qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutmalıdır.

Komissiyanın şöbə müdiri Rafiq Nəcəfov "Etik davranış qaydaları haqqında" Qanunun müddəalarını ətraflı şərh etmiş, slaydlar vasitəsi ilə qanunun tələblərini seminar iştirakçılarının nəzərinə çatdırmışdır. Qeyd edilmişdir ki, "Etik davranış qaydaları haqqında" Qanunun tələblərinə əməl edilməsinə nəzarəti dövlət orqanının rəhbəri həyata keçirməlidir. Eyni zamanda nəzarət orqanı kimi komissiyanın üzərinə də bu sahədə bir sıra vəzifələr düşür.

Günün ikinci yarısında seminar öz işini davam etdirmişdir. Komissiyanın sektor müdiri Arzuman İmanov çıxış edərək dövlət orqanlarında kadr qurumlarının işinin gücləndirilməsi məqsədilə seminar iştirakçılarına dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları, dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair təlimat, Azərbaycan Respublikasının dövlət qulluqçuları reyestrinin aparılması qaydaları haqqında ətraflı məlumat vermişdir.

Seminarın sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

## Ətraf mühitin mühafizəsi, təbii qaz və elektrik enerjisindən düzgün istifadə qaydalarına həsr olunmuş maarifləndirici tədbirlər davam etdirilir

*İyunun 18-də Ordubad Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Sabirkənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyində ətraf mühitin mühafizəsi, təbii qaz və elektrik enerjisindən düzgün istifadə qaydalarına həsr olunmuş maarifləndirici tədbir keçirilmişdir.*

Tədbiri giriş sözü ilə Sabirkənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Səbuhi İsgəndərli açaraq tədbirin mahiyyəti barədə iştirakçılara məlumat vermişdir.

Tədbirdə ətraf mühitin qorunmasına dair qəbul edilən qanunlar haqqında danışan Ordubad rayon prokuroru, baş ədliyyə müşaviri Yusif Abdullayev demişdir ki, qədim Naxçıvan torpağı balıq, heyvanlar və quşlarla zəngin olan bir ərazidir və bu ərazidə qanunsuz balıq tutulması, habelə qanunsuz ov edilməsi ilə bağlı ictimai təhlükəli əməllərin vaxtında qarşısının alınması məhz diyarımızın öz təbii gözəlliyinin qorunmasına xidmət edir.

Qeyd edilmişdir ki, bəzi ictimai təhlükəli əməllər, o cümlədən qanunsuz balıqtutma və ovetmə ilə müşayiət olunan əməllər öz xarakterinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, həm cinayət məsuliyyəti, həm də inzibati məsuliyyət yaradır.

Sonra Ordubad rayon prokurorunun köməkçisi Əkbər Rzayev enerji ehtiyatlarından qənaətlə istifadə olunması haqda məruzə ilə çıxış etmişdir.

Vurğulanmışdır ki, müstəqilliyimizin ilk illərində muxtar respublikada enerji təminatı ilə bağlı ciddi problemlər mövcud idi və bu, ağacların kəsilməsi, yaşıllıq sahələrinin azalması ilə nəticələnmişdi. Bu gün dövlətimizin energetika sahəsində apardığı məqsədyönlü siyasət nəticəsində muxtar respublika özünü enerji ilə tam təmin edən və enerji ixrac edən diyara çevrilmişdir. Nəticə etibarilə, bu həm də ekoloji vəziyyətin yaxşılaşması ilə nəticələnmişdir.

Qeyd edilmişdir ki, elektrik enerjisindən, təbii qazdan və su ehtiyatlarından düzgün və səmərəli istifadə, bu məsələlərlə bağlı qanunların tələblərinə ciddi riayət edilməsi hər bir vətəndaşın borcudur.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

## Sığortalı vətəndaşa dəymiş zərər ödənilmişdir

Naxçıvan Muxtar Respublikasında sığorta fəaliyyəti istiqamətində aparılan işlər bədbəxt hadisələr nəticəsində vətəndaşlara dəymiş zərərlərin əvəzinin ödənilməsində mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada daşınmaz əmlakını, mülki məsuliyyətini icbari sığorta etdirən vətəndaşlar baş verən gözlənilməz bədbəxt hadisələr zamanı dəymiş zərərə görə sığorta haqqı alaraq maddi çətinlik çəkmirlər. Belə bir sığorta hadisəsi bu yaxınlarda Şərur rayonundakı Cəlilkənddə baş vermişdir. İyunun 2-də kənd sakini, 74 yaşlı Tacirə Orucovanın yaşayış evində yanğın hadisəsi baş vermişdir. Qaz plitəsindən yaranmış yanğın qısa müddət ərzində Tacirə nənənin evini bürümüşdür. Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi əməkdaşlarının səylərinə baxmayaraq, yaşayış evinin 190 kvadratmetrinə zərər dəymişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin mütəxəssisləri yaşayış evinə baxış keçirmiş və dəymiş zərərin dəyəri 5050 manat məbləğində müəyyənləşdirilmişdir. İyunun 18-də ona çatan sığorta ödənişini alan Tacirə Orucova dövlətimizə öz dərin minnətdarlığını bildirmişdir.

## Məktəblilər Ağbulaq İstirahət Mərkəzindədir

*Muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan şagirdlərin yay tətili günlərini mənalı və səmərəli keçirmələri üçün müxtəlif aidiyyəti qurumlar tərəfindən bir sıra tədbirlər həyata keçirilir.*

Belə tədbirlərdən biri də məktəblilərin yay tətilində Ağbulaq İstirahət Mərkəzində dincəlmələrinin təşkil edilməsidir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumata görə, Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 43 şagirdi Ağbulaq İstirahət Mərkəzinə göndərilib. Onlara 5 nəfər nəzarətçi müəllim təyin edilib. Bir həftə davam edəcək istirahət günlərinin maraqlı və məzmunlu olması üçün tədbirlər planı hazırlanıb. Plana əsasən, məktəblilər burada müxtəlif idman və bilik yarışlarında güclərini sınayır, diskussiyalara qoşulur, gəzintilərə aparılırlar.

## 554 hektar sahənin taxılı biçilib



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 26274,1 hektarı buğda, 9475,6 hektarı arpa olmaqla, 35749,7 hektar sahədə taxıl əkilib. Növbəti taxıl tədarükü mövsümünə bir neçə gündür ki, start verilib.

Operativ məlumatda bildirilir ki, taxıl istehsalçıları sahələrə aqrotexniki qaydalar əsasında qulluq göstəriblər. Odur ki, zəmilərdə bol məhsul yetişib. Bu günədək 554 hektarın məhsulu tədarük olunub ki, bunun da 61 hektarını buğda, 493 hektarını arpa təşkil edir. Sahələrdən 103,5 ton buğda, 940,1 ton arpa olmaqla, ümumilikdə, 1043,6 ton məhsul götürülüb. Hazırda sahələrdə 43 kombayn işləyir.

Taxıl tədarükündə Babək rayonu öndə gedir. Bu bölgədə 177 hektar sahədə biçin başa çatdırılıb. Ordubadlı taxılçılar, hələlik, 166 hektar sahənin məhsulunu tədarük ediblər. Kəngərlidə 110, Culfa rayonunda 101 hektar sahədən məhsul götürülüb.

**Xəbərlər şöbəsi**

*Dünən bu mövzuda Naxçıvan Dövlət Universitetində (NDU) elmi konfrans keçirilib.*

## Naxçıvan Muxtar Respublikasının flora və faunası: ətraf mühitin mühafizəsi

Konfransı giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov çıxışına ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə başlayıb: ***"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genefondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür".*** Müstəqilliyin ilk illərində Azərbaycanda ekoloji problemlərin həllinin diqqətdən kənarda qaldığını vurğulayan rektor ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində ardıcıl tədbirlər görüldüyünü, bu sahədə dövlət siyasətini tənzimləyən zəngin qanunvericilik bazası yaradıldığını qeyd edib. Bildirilib ki, dahi şəxsiyyətin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında təbii ehtiyatlardan səmərəli istifadə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq və ətraf mühiti qorumaq hüquqları haqqında maddələr öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubovun "Naxçıvan Muxtar Respublikasında dövlət ekoloji siyasəti" mövzusunda məruzəsi dinlənilib. Nazir ulu öndərin 2001-ci il 23 may tarixli Sərəncamı ilə ölkəmizdə ekoloji siyasəti həyata keçirən vahid dövlət idarəetmə strukturunun – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasını, ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan edilməsini Azərbaycan ekologiyasına göstərilən dövlət qayğısı olduğunu bildirib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında da əlverişli ekoloji mühitin yaradılması sahəsində ardıcıl tədbirlər görülür. "Əlverişli mühitin yaradılmasında ən mühüm amillərdən biri meşə ehtiyatlarının qorunması, bərpası və artırılmasıdır. Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilib. Bu da sayı azalmaqda olan flora və fauna növlərinin mühafizə edilməsi və artırılmasında mühüm əhəmiyyət kəsb edir", – deyən məruzəçi bildirib ki, ətraf mühitdən istifadə etmək hər bir vətəndaşın hüququ olduğu kimi, onun qorunması da hər birimizin vətəndaşlıq borcudur.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tariyel Talıbovun "Naxçıvan Muxtar Respublikasında biomüxtəlifliyin mühafizəsi problemləri", NDU-nun Baytarlıq kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirovun "Naxçıvan Muxtar Respublikasında arıçılığın mövcud vəziyyəti və inkişaf perspektivləri", Botanika kafedrasının dosenti Hilal Qasımovun "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", Zoologiya kafedrasının baş müəllimi Hüseyn Novruzovun "Naxçıvan Muxtar Respublikasında qışlayan quşlar" mövzularında məruzələri dinlənilib.

Məruzələrdə ətraf mühit və təbii sərvətlərin qorunmasında ekoloji maarifləndirmənin mühüm rolu olduğu, buna görə də muxtar respublikada insanların ətraf mühit və ekoloji təhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılmasının, gənc nəslin ekoloji mədəniyyət səviyyəsinin təkmilləşdirilməsinin və ətraf mühitin birgə mühafizəsinə cəlb olunmasının diqqət mərkəzində saxlanıldığı, bu məqsədlə ardıcıl tədbirlər görüldüyü bildirilib.

Konfransda məruzəçilər tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıblar.

**Mina QASIMOVA**

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, Culfa rayonunda keçirilən əmək yarmarkasına 154 boş iş yeri təqdim olunub.*

## Növbəti əmək yarmarkası

Tədbirdə rayon Məşğulluq Mərkəzinin direktor əvəzi İsmayıl İsmayılov çıxış edərək deyib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin, onların münasib işlə təminatının gücləndirilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən mühüm tədbirlərdən biri də əmək yarmarkalarının təşkil olunmasıdır. Bu yarmarkalar vasitəsilə işaxtaranlar öz ixtisaslarına uyğun işlə təmin olunurlar.

İşaxtaran vətəndaş Aylar Əliyeva belə tədbirlərin təşkilində əməyi olanlara minnətdarlıq edib.

Culfa Rayon İcra Hakimiyyətinin nümayəndəsi Yalçın Hüseynov çıxış edərək rayonda əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.

Yarmarkada 31 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Ordubad rayonunda keçiriləcək.

**Sona MİRZƏYEVA**

## "Araz" Elm-İstehsalat Birliyində tarla seminar müşavirəsi keçirilmişdir

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, nazirliyin strukturuna daxil olan təşkilatların mütəxəssisləri və Babək rayonundan olan bir sıra torpaq mülkiyyətçilərinin iştirakı ilə Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təcrübə təsərrüfatında "Kartofun mexaniki üsulla becərilməsinin əhəmiyyəti" mövzusunda tarla seminar müşavirəsi keçirilmişdir.*

Tədbirin keçirilməsində məqsəd kənd təsərrüfatında bitkiçiliyin inkişaf etdirilməsində elmin son nailiyyətləri əsasında tətbiq olunan mütərəqqi texnologiyaların istehsalçılara çatdırılması, əkin sahələrinin becərilməsində əl əməyindən istifadənin azaldılması, mütərəqqi suvarma üsullarının tətbiq edilməsi işinin yerinə yetirilməsi vəziyyətini öyrənmək idi.

Seminar-müşavirəni "Araz" Elm-İstehsalat Birliyinin Baş direktoru Bəhruz Bayramov açaraq "Kartofun mexaniki üsulla becərilməsinin əhəmiyyəti" mövzusunda məruzə ilə çıxış etmişdir. Sonra nazirliyin mütəxəssisləri Ədalət Hüseynovun, Zərrab Əfəndiyevin, Nüsrət Əliyevin, Bitki Mühafizə Stansiyasının rəisi İlqar İbrahimovun, Naxçıvan Muxtar Respublikası Dövlət Toxum Müfəttişliyinin əməkdaşı Xaliq Abbasovun, Layihə Axtarış Kimyalaşdırma Stansiyasının direktoru Məhəmməd Qaybalıyevin məruzə ətrafında çıxışları olmuşdur. Çıxışlarda bildirilmişdir ki, əkin keçirilməzdən öncə torpağın analizi aparılmalı, keyfiyyətli toxum sortlarından və texnikalardan səmərəli istifadə edilməli, vaxtında suvarma, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri aparılmalıdır.

Sonda kartofa aqrotexniki qulluq qaydaları, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılması haqqında hazırlanmış informasiya kitabçaları sahibkarlara təqdim edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Sosial-iqtisadi inkişaf sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasında hərəkətverici qüvvədir

*Yer planetində oxşar muxtariyyətlərin qlobal səviyyədə sosial-iqtisadi inkişaf istiqamətləri axtardığı, hələ də böhran problemini aradan qaldırmağa çalışdığı bir vaxtda Naxçıvan Muxtar Respublikası dinamik inkişafa yönəlmiş, burada insan inkişafı indeksini (uzun və sağlam ömür, təhsil səviyyəsi, layiqli yaşayış standartları) yüksəldən yeni strateji vəzifələr uğurla reallaşdırılır.*

20 ildən artıqdır ki, işğalçı Ermənistan dövləti tərəfindən blokada vəziyyətinə salınmasına baxmayaraq, muxtar respublikanın iqtisadi, sosial aurası anbaan nəzərəçarpacaq dərəcədə müsbət göstəricilərlə yüksəlir, ildənilə dövlət və özəl sektorda müsbət dəyişikliklər regionun tarixində yeni rekordlar müəyyənləşdirir. Çağdaş dövrdə hər bir ölkə vətəndaşının qarşısındakı öhdəliklərini nə dərəcədə yerinə yetirməsinin əsas şərtlərindən biri də xüsusi qayğıya ehtiyacı olan insanlara yaradılan imkanların praktik məcmusu ilə xarakterizə edilir. İnkişafı hədəf seçmiş Naxçıvan Muxtar Respublikası üçün də bu şərtlər prinsipial önəm daşıyır. Məhz buna görə muxtar respublikada bütün kateqoriyadan olan vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.

Bu mənada sosial-iqtisadi inkişafın bəhrələrindən xüsusi qayğıya ehtiyacı olan vətəndaşlarımız da lazımınca yararlanır, həyat motivlərini daha da mənalandırırlar. Əlil insanların təhsil almaları və gələcəyini rahat, səmərəli qurmaları məsələləri də diqqətdə saxlanılır və lazımi işlərin koordinasiyasını dövlətimiz üzərinə götürərək uğurla icra edir. Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilalma imkanlarının araşdırılması, bu yöndə dövlət səviyyəsində görülən işlərin mahiyyəti ictimai rəylə üst-üstə düşür. Bu qəbildən olan vətəndaşlarımızın təhsili ilə bağlı maneələrin dəf edilərək neytrallaşdırılması istiqamətində effektiv iş prinsipi icra olunur, məqsəd və vəzifələr düzgün müəyyənləşdirilir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi konsepsiyasına yeni yanaşma və onun muxtar respublikada getdikcə daha böyük əhəmiyyət daşıması təbiidir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü dövlətin qurulmasında təhsil mühüm rol oynayır. Bu səbəbdən sağlamlıq imkanları məhdud şəxslərin də təhsil səviyyəsinin hazırkı inkişaf mərhələsinə uyğunlaşdırılması çox vacibdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu qəbildən olan uşaqların təhsilə cəlb olunması baxımından mühüm əhəmiyyət daşıyır. Aydındır ki, uşaqların erkən yaşdan təhsilinə qoyulan sərmayə iqtisadi və sosial baxımdan daha yüksək faydalılıq əmsalına malikdir. Başqa sözlə, bu istiqamətə sərf olunan vaxt hədər getmir, xərclənən vəsait sonrakı dövrlərdə dəfələrlə artıq gəlir gətirir. Sağlamlıq imkanlarından asılı olmayaraq hər bir insanın təhsilli, bilikli olması mənsub olduğu xalq üçün ən böyük nemətdir. Təhsilli vətəndaşları olan dövlətdə isə yoxsulluğun səviyyəsi aşağı düşür, cinayətkarlıq azalır. Bu da insanların maddi rifahını və təhlükəsizliyini təmin edir, dövlətin və dövlətçiliyin qüvvətlənməsinə möhkəm zəmin yaradır. Birləşmiş Millətlər Təşkilatı tərəfindən də XXI əsrin "Təhsil əsri" elan edilməsi hər kəsin lazımi təhsil alması məsələsinin çox ciddi anlam daşıdığını bir daha təsdiq edir.

Son 10 il ərzində muxtar respublikada 56 min 926 şagird yerlik 142 tam orta məktəb binası tikilərək və ya yenidən qurularaq gənc nəslin istifadəsinə verilmişdir. Ən ucqar yaşayış məntəqəsində belə, yenidən tikilən, yaxud əsaslı təmir olunan təhsil müəssisələrində müasir standartlar səviyyəsində yeni avadanlıqla təchiz edilmiş fənn kabinələri yaradılmış, muxtar respublika üzrə ümumtəhsil məktəblərində 550-dən çox elektron lövhə, hər 14 şagirdə 1 kompüter dəsti olmaqla, 3400-dən çox kompüter quraşdırılmış, bu kompüterlərin 84 faizinin birbaşa internetə çıxışı təmin olunmuşdur. Bütün sinif otaqları əyani vəsaitlərlə təchiz edilmiş, məktəblərin kitabxanaları zənginləşdirilmişdir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində gözdən əlil və görmə qabiliyyəti zəif olan uşaqların kitab oxumaları üçün brayl şriftli kitablardan ibarət xüsusi guşə yaradılmış, burada mətni audio formata çevirən avadanlıq vasitəsilə istənilən məlumatı əldə edə bilmək üçün xüsusi klaviatura və qulaqcıqlar qoyulmuşdur. Mərkəzdə ölkəmizdə ilk dəfə olaraq xüsusi proqram təminatı əsasında gözdən əlil, görmə qabiliyyəti zəif və eşitmə qabiliyyəti məhdud olan uşaqlar üçün audiokitabxana və elektron kitabxana xidmətləri fəaliyyət göstərir. Mərkəz bu qəbildən olan uşaqların həyata qoşulmasına, onların bilik və məlumat əldə etmək imkanlarının genişləndirilməsinə xidmət edir.

Məktəbəqədər təhsil ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Məktəbəqədər təhsil vasitəsilə sağlam və sağlamlıq imkanları məhdud olan uşaqlar arasında bərabərlik imkanlarının yaradılması sonradan cəmiyyətin müxtəlif sosial təbəqələri arasında fərqlərin azalmasına gətirib çıxarır.

Muxtar respublikada məktəbəqədər təhsil sahəsində mövcud olan problemlər aradan qaldırılır, təhsilin müasir tələblər səviyyəsində qurulmasının təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Hazırda muxtar respublikada 17 uşaq bağçası fəaliyyət göstərir. Onlardan 16-sı tam müasir bina ilə təmin olunmuş, müvafiq avadanlıqlarla, o cümlədən oyuncaq və idman avadanlıqları, texniki vasitələrlə, müxtəlif təlim vəsaitləri ilə təmin edilmişdir. Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi də təyinatı üzrə uşaqlara xidmət göstərir.

Məktəbəqədər yaşlı sağlamlıq imkanları məhdud uşaqların müəyyənləşdirilməsi və onlar haqqında məlumat bazasının yaradılması, bu uşaqların əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə cəlb olunması və Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə yerləşdirilməsi, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilində məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə kursların keçirilməsi "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın prioritet vəzifələrindəndir.

Bu vəzifələrin icrasını aidiyyəti təşkilatlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də həyata keçirir. Yeri gəlmişkən qeyd edim ki, muxtar respublikada 357 məktəbəqədər yaşlı sağlamlıq imkanları məhdud uşaq vardır. Komitə tərəfindən cari ildə bu qəbildən olan uşaqlardan 46-sı məktəbəqədər, 22-si məktəbdənkənar, 2-si isə tam orta məktəblərə cəlb olunmuşdur. Bütün məktəbəqədər müəssisələrdə monitorinqlər keçirilmiş, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilində məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə kurs təşkil edilmişdir.

Müvafiq uşaqların valideynləri də bu işə həssas münasibət bəsləməli, məktəbəqədər yaşlı sağlamlıq imkanları məhdud övladlarının uşaq bağçalarına getməsinə "arxa bağça" kimi baxmamalı, təhsilin bu ilk pilləsini uşağın zirvəyə doğru atılmış ilk addımı olaraq qiymətləndirməli, uğurlu gələcəyinin ilkin konturu olaraq yanaşmalıdırlar.

Qabaqcıl təhsil sistemi sağlamlıq imkanları məhdud uşaqların xüsusi məktəbəqədər təhsil müəssisələrində, internattipli məktəblərdə deyil, sağlam uşaqların təlim-tərbiyə, təhsil aldığı müəssisələrdə, ümumtəhsil məktəblərində, yaxud sinif səviyyəsində inteqrasiyanı həyata keçirməklə onları təhsilə cəlb etməyi tələb edir. Təhsilin belə bir formada təşkili xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətdən və yaşıdlarından təcrid olunmasına imkan vermir, onlarda özünəinam yaradır, sağlam uşaqlarda isə onlara qarşı tolerantlıq, mərhəmət, qayğı hisslərinin formalaşmasına səbəb olur. Etiraf etməliyik ki, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" qəbul olunanadək bu sahədə aparılan iş ləng idi və ümumi olaraq uşaqların təhsilə cəlb edilməsi fonunda təsnif olunurdu. Ancaq dövlət proqramının qəbulundan sonra sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil müəssisələrinə, ümumtəhsil məktəblərinə cəlb olunmasında metodika dəyişmiş, sürətlənmə, çeviklik nəzərəçarpacaq qədər artmışdır.

Bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında yaşayan uşaqların ömürlərinə daha bir əlamətdar gün yazıldı və aidiyyəti təşkilatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrindən bütün uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların hüquqlarını qorumaq, reabilitasiyası və sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaq, onların cəmiyyətə inteqrasiyası, təhsili və asudə vaxtlarının səmərəli təşkili üçün tədbirlər görmək tapşırığı aldı. 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə uşaqlarla görüşdə Ali Məclisin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: ***"Uşaqları qorumaq, onları müdafiə etmək hər bir dövlətin qarşısında duran əsas vəzifədir. O cəmiyyət öz sabahına ümidlə baxa bilər ki, gənc nəslin yetişməsi qayğısına qalsın, bunun
 bağlı vəzifələri yerinə yetirsin".***

***"2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud şəxslərin təhsil almasına geniş imkanlar yaradır. Bir daha aydın olur ki, sağlamlıq vəziyyətindən asılı olmayaraq, insanların bir-birlərinə adaptasiyası, hər kəsin təhsil almaq, gələcəkdə yaratmaq, qurmaq, birgə əmək fəaliyyəti istiqamətində imkanların və psixoloji auranın yaradılması sahəsində görülən və görülməkdə olan işlər Naxçıvan Muxtar Respublikası təcrübəsi kimi öyrənilməlidir. Bu model-təcrübə insanlığa verilən qiymət, xalqımızın düşünülmüş gələcəyinə doğru atılan növbəti addımdır.***

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

***Naxçıvan Muxtar Respublikasında təhsil sahəsindəki səmərəli fəaliyyətlərinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 14 iyun tarixli Sərəncamı ilə Heydər Əliyev adına Hərbi Liseyin iki müəllimi "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, bir nəfər isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilmişdir. Həmin müəllimləri oxucularımızla daha yaxından tanış etmək üçün onları redaksiyamıza dəvət edib sevinclərini bölüşdük:***

## Gələcəyin zabitlərini yetişdirmək böyük şərəfdir



***Zərifə SEYİDOVA – Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi:*** – Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbi qızıl medalla bitirmişəm. Kimya ixtisası üzrə ali təhsil almışam. İlk müəllimlik fəaliyyətinə məzun olduğum orta məktəbdən başlamışam. 2006-cı ildən Heydər Əliyev adına Hərbi Liseydə müəllimlik peşəmi davam etdirirəm. Heydər Əliyev adına Hərbi Lisey! Bu ad insanda necə də qürur və fəxr hissi yaradır! Burada işləmək çox məsuliyyətli və şərəflidir. Hər bir qüdrətli dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün təminatçısı onun güclü ordusudur. Bu gün Azərbaycan Respublikasının güclü ordusu var. Heydər Əliyev adına Hərbi Lisey Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ixtisaslı və peşəkar kadr təminatı istiqamətində fəaliyyətini uğurla davam etdirir. Bir müəllim kimi bununla fəxr edirəm. Qeyd edim ki, liseydə kursantların yüksək təhsil almaları üçün hər cür şərait yaradılıb. Müxtəlif fənlərin tədrisində yararlı olan kabinələr, laboratoriyalar yüksək səviyyədə dərs keçməyimizə imkan verir. Mütəmadi tədbirlərin, yarışların, gecələrin keçirilməsi kursantların bilik və bacarıqlarını, onların istedadlarını üzə çıxarır. Kursantlar boş vaxtlarında müxtəlif dərnəklərdə iştirak edir, liseyimizin zəngin kitabxanalarında mütaliə ilə məşğul olurlar. Hərbi Liseydə kursantların Vətənimizə bağlılıqları və məhəbbəti gün keçdikcə daha çox artır.

İndiyə qədər müxtəlif mükafatlar almışam. Sonuncu mükafatımı əməyimə verilən yüksək qiymətin zirvəsi hesab edirəm. Pedaqoji fəaliyyətimin yüksək qiymətləndirildiyinə görə, doğma, əziz liseyimizə xüsusi diqqət və qayğı göstərdiyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm. Bu yüksək qiymət məni daha böyük məsuliyyətlə çalışmağa və yüksək nailiyyətlər əldə etməyə sövq edir.



***Mirismayıl SEYİDOV – "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan:*** – 1975-ci ildə Şahbuz rayonunun Biçənək kəndində anadan olmuşam. 1992-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Türkiyə Respublikasına oxumağa göndərilən gənclərdən biriyəm. Qardaş ölkədə təhsilimi başa vurduqdan sonra Naxçıvan Dövlət Universitetinin magistratura təhsil pilləsini fərqlənmə diplomu ilə bitirmişəm. 2003-cü ildən isə Heydər Əliyev adına Hərbi Liseydə tarix müəllimi kimi fəaliyyətə başlamışam. Ümummilli lider Heydər Əliyevin adını daşıyan liseyin müəllimi olmaqdan qürur duyuram. Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 10 illiyinin qeyd edildiyi ərəfədə bu ada layiq görülməyim mənim üçün ayrı bir sevincdir.

Bütün peşə sahiblərini yetişdirən müəllimdir. Bu səbəbdən müəllim peşəsi daha məsuliyyətlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə ulu öndər Heydər Əliyevin yaratdığı, hər Naxçıvana gəlişində dahi rəhbərin baş çəkdiyi, bu gün isə Onun adını daşıyan Hərbi Liseydə çalışmaq ikiqat məsuliyyətdir. Ulu öndər Heydər Əliyev Naxçıvanda Hərbi Liseyi yaradarkən əmin idi ki, bu məktəb heç vaxt diqqətdən kənarda qalmayacaq. Biz Ali Məclis Sədrinin diqqət və qayğısını daim öz üzərimizdə hiss edirik. Ali Məclis Sədrinin hər il liseyin buraxılış tədbirlərində iştirak etməsi, məsləhət və tövsiyələr verməsi bizi daha yaxşı işləməyə sövq edir.

Ali Məclisin Sədri bu il iyunun 17-də Hərbi Lisey kursantlarının buraxılış mərasimindəki çıxışında demişdir ki, ***"Biz bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına baxarkən, bu məktəbin məzunlarının hərbi xidmətdəki fəaliyyətlərini izləyərkən möhkəm iradəyə malik vətənpərvər gəncliyi görür, istər-istəməz doğma Azərbaycanımızın gələcəyini düşünür və bununla iftixar hissi keçiririk. Heydər Əliyev adına Hərbi Liseyin kursantı olmaq böyük məsuliyyət və şərəf işidir".*** Biz müəllimlərin də bu kursantların yetişməsində üzərinə böyük vəzifələr düşür. Mənə göstərilən bu etimad və əməyimə verilən bu yüksək qiymət üçün dərin minnətdarlığımı bildirirəm. Əmin edirəm ki, göstərilən bu etimadı doğruldacaq, əməyimə verilən bu yüksək qiymətə işimlə cavab verməyə çalışacağam.



***Abdulla HƏSƏNOV – Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi:*** – Heydər Əliyev adına Hərbi Liseydə riyaziyyat fənnini tədris edirəm. Qeyd edim ki, silahlı qüvvələrimiz üçün gənc zabitlər yetişdirmək liseyimizin müəllim və zabitləri üçün şərəfli, müqəddəs və məsuliyyətli bir işdir. Bizim ən başlıca məqsədimiz kursantlara Vətənə məhəbbət, torpağa sevgi, xalqına və millətinə sədaqət hissləri aşılamaq, müstəqil Azərbaycanımız üçün əsl zabit yetişdirməkdir. Bu gün məqsəd təkcə fiziki cəhətdən sağlam, savadlı, yetkin gənclər deyil, həm də Vətənə, dövlətə, milli dəyərlərə, ən əsası isə ümummilli lider Heydər Əliyevin ideyalarına və Ali Baş Komandana sədaqətli gənclər yetişdirməkdir. Hərbi Liseydə kursantlarla aparılan iş də ümummilli liderimizin irsini, onun ideyalarını dərindən öyrənmək və gələcək xidmətdə tətbiq etmək prinsipi üzərində qurulmuşdur.

Mənim pedaqoji fəaliyyətimin belə yüksək səviyyədə qiymətləndirilməsinə görə dərin minnətdarlığımı bildirirəm. Söz verirəm ki, fəaliyyət göstərdiyim Heydər Əliyev adına Hərbi Liseydə kursantların əsl vətənpərvər, dövlətini, xalqını, torpağını sevən, savadlı, intellektli bir vətəndaş, Azərbaycan Silahlı Qüvvələrinə yararlı zabit kimi yetişməsində savadımı, bacarığımı və var qüvvəmi əsirgəməyəcəyəm.

**Müsahibəni apardı: Sara ƏZİMOVA**

## Tamaşaya ictimai baxış olmuşdur

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının böyük Norveç dramaturqu Henrik İbsenin (1828-1906) "Kuklalar evi" (1879) üçpərdəli psixoloji dramı əsasında hazırladığı tamaşaya ictimai baxış olmuşdur. Avropada yeni dramaturgiyanın yaradıcısı, sosial-psixoloji dramın banisi kimi tanınan Henrik İbsenin "Kuklalar evi" əsərində insanın daxili aləmi, sosial ziddiyyətləri, ümumbəşəri problemləri real hadisələrin inkişafı fonunda ortaya qoyulur.*

Tamaşada hadisələr vəkil Torvald Helmerin ailəsinin yaşadığı evdə cərəyan edir. İlk səhnədə bu ailə xoşbəxt ailələrdən biri kimi təqdim olunur. Torvald Helmer (aktyor Elnur Rzayev) həqiqəti sevən, öz işini bilən məmur təsiri bağışlayır. Səkkiz il bundan əvvəl ailə qurduğu Nora ilə (aktrisa Nurbəniz Niftəliyeva) çox mehriban həyat sürürlər, uşaqları var. Nora da bu həyatdan razıdır. Lakin hadisələrin tədrici inkişafı insan xarakterinin, xüsusilə tamaşanın bu iki əsas obrazının xarakterinin açılmasını göstərməklə, insan qəlbinin dərin psixoloji qatlarına enməklə ictimaibəşəri məsələləri göstərir, tamaşaçını analitik düşüncələrə sövq edir.

"Kuklalar evi" tamaşasının birinci hissəsi sanki obrazların təqdimi, ikinci hissə hadisələrin inkişafı, üçüncü hissəsi isə nəticədir.

Böyük dramaturq əsərin proloqunda bu ailəni xoşbəxt göstərsə də, tamaşada hadisələr cərəyan etdikcə hiss olunur ki, əslində, bu ailəni xoşbəxtlik gözləmir. Sonra aydın olur ki, Torvald Helmer ağır xəstəlik nəticəsində ölüm qarşısında qaldığı zaman Nora atasının əvəzinə bankdan pul götürmək üçün müqaviləyə saxta imza ataraq pul götürmüş və qənaət yolu ilə borcunu ödəməkdədir. Ərinin isə bu məsələdən xəbəri yoxdur. Bu saxta işi bilən isə ancaq Helmerin müdiri olduğu bankın kiçik məmurlarından Kroqstaddır. Kroqstad (Azərbaycan Respublikasının əməkdar artisti Bəhruz Haxverdiyev) saxtakar işlərinə görə bir neçə dəfə cəzalandırılmışdır. Torvald Helmerin onu işdən azad edəcəyini görən Kroqstad Noraya müraciət edərək onun saxta işini ifşa edəcəyini bildirir. Helmer Noranın onu işdən çıxarmamaq xahişini rədd etdikdə isə ailədəki vəziyyət daha da dramatikləşir.

Tamaşanın son hissəsi – epiloqdakı ər və arvadın söhbəti əsərin əsas ideyasını ortaya qoyur. Noranın dediyi: "Evimdə olduğum vaxt atam mənim hər bir hərəkətimi öz öyüdlərinə uyğunlaşdırmağı tələb edirdi. Mən onun kuklası idim. Sonra sənin kuklan oldum... Sən evdə hər şeyi öz zövqünə görə düzəldirdin. Sənin zövqün mənim zövqüm idi... İndi keçmişə nəzər saldığım vaxt görürəm ki, bu ailədə mən kölə vəziyyətində yaşamışam... Mən şən idim, lakin xoşbəxt deyildim..." sözləri onu göstərir ki, vəzifəsini üstün tutan Helmer Noranı qiymətləndirə bilmir və Nora ailəsini tərk edir.

Tamaşanın son səhnəsindən bəhs edərkən psixoloji anları, aktyorların yaşadığı bu hissləri xüsusilə qeyd etmək lazımdır. Nurbəniz Niftəliyeva (Nora) və Elnur Rzayev (Helmer) tamaşanın son səhnəsində bu psixoloji anları, dialoqları təbii, canlı çatdırmağa çalışırlar. Bizcə, əsərin son səhnəsini tamaşaçıya çatdırmaq aktyorlardan daha çox bacarıq tələb edir. İbsenin də vaxtilə təsdiq etdiyi kimi: "...bütün pyes tamaşanın nəticəsi xatirinə yazılmışdır". Bu, o deməkdir ki, tamaşanın bütün ağırlığı bu səhnənin üzərindədir. Ona görə də hər iki aparıcı obrazın ifaçıları bu hissəyə daha çox diqqət yetirməyə çalışırlar.

Tamaşanın digər personajları – Kroqstad (Azərbaycan Respublikasının əməkdar artisti Bəhruz Haxverdiyev), həkim Rank da (Azərbaycan Respublikasının xalq artisti Şirzad Abutalıbov) təcrübəli aktyorlarımızın ifasında uğurla təqdim edilmişdir. Onlar psixoloji anları tamaşaçıya çatdırmağa müvəffəq olmuşlar. Nora və Torvald Helmerlərdən sonra tamaşanın daha çox səhnədə görünən, yaddaqalan surətləri onlardır.

Tamaşada rol almış aktrisalar Nazlı Hüseynquliyevanın (Frü Linne), Zülfiyyə Zeynalovanın (Anne Marie), Şölə Novruzbəylinin (xidmətçi), aktyor Anar Eyvazovun da (kuryer) tamaşanın yüksək səviyyədə təqdimindəki uğurlu əməyi qiymətləndirilməlidir.

Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov Azərbaycan səhnəsində ilk dəfə tamaşaya qoyulan "Kuklalar evi" dramını uğurla təqdim edə bilmişdir. Rejissor əsas ideyanı düzgün açmaqla yaddaqalan səhnələrə diqqət yetirməyi bacarmışdır. Tamaşanın quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əbülfəz Axundovun tərtibatı da diqqətəlayiqdir.

Tamaşanın musiqi tərtibatçısı Fətəli Axundzadənin uğurlu musiqi seçimi və duyumu tamaşada aydın hiss olunur. Xüsusilə Norveç klassik musiqisinin banisi, dünya şöhrətli bəstəkar Edvard Qriqin lirik əsərlərindən istifadə edilməsi tamaşanın psixoloji aurası ilə üst-üstə düşür. Tamaşa boyu Norveç xalq musiqisindən, böyük alman bəstəkarı İ.S.Bax, görkəmli rus bəstəkarı S.S.Prokofyevin əsərlərindən seçilmiş musiqi parçaları tamaşadakı hadisələrə, obrazların psixoloji vəziyyətlərinə uyğun gəlir.

Qeyd edək ki, bu tamaşa son dörd ildə teatrın klassik Avropa dramaturgiyasından səhnəyə qoyduğu ikinci əsərdir (teatr 2010-cu ildə böyük alman dramaturqu Lessinqin "Müdrik Natan" tamaşasını səhnəyə qoymuşdu).

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının sektor müdiri Turqayə Əliyeva, Xalq rəssamı Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının əməkdar artisti Xəlil Hüseynov, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlı, Xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Kamran Quliyev, tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildirmişlər.

**Əli RZAYEV**

*Naxçıvan Dövlət Universitetinin iştirakçısı olduğu beynəlxalq əməkdaşlıq layihəsi çərçivəsində növbəti tədbir Almaniyada keçirilmişdir.*

## TEMPUS layihəsi üzrə növbəti tədbir

9-14 iyun tarixlərində bu ölkənin Vorms şəhərində universitetin tərəfdaşı olduğu "SuToMa" (Dayanıqlı turizmin idarə olunması üzrə bakalavriat və magistrant hazırlığı modullarının yaradılması) layihəsinin növbəti konfransı keçirilmişdir. Konfransda universitetin tərbiyə işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev və Dünya iqtisadiyyatı kafedrasının baş müəllimi Əli Cabbarov iştirak etmişlər. Tədbirdə layihə çərçivəsində görülmüş işlər müzakirə edilmiş, modullar üzrə əldə olunmuş nəticələrin təqdimatları keçirilmişdir. Növbəti tədris ilində əldə olunmuş təcrübənin tərəfdaş olan Cənubi Qafqaz ölkələri universitetlərində tətbiq olunması üçün təlimlərə başlanılması nəzərdə tutulmuşdur.

**Xəbərlər şöbəsi**

## AMEA Naxçıvan Bölməsi elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş olan baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi və elmi işçi vəzifələrini tutmaq üçün müsabiqə elan edir

**Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə:**

***Yeni və ən yeni tarix şöbəsi***

*Böyük elmi işçi – 1 yer*

***Qədim və orta əsrlər tarixi şöbəsi***

*Böyük elmi işçi – 1 yer*

***Qədim dövr arxeologiyası şöbəsi***

*Böyük elmi işçi – 1 yer*

**İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə:**

***Ədəbiyyatşünaslıq şöbəsi***

*Böyük elmi işçi – 1 yer*

*Elmi işçi – 1 yer*

***Dilçilik şöbəsi***

*Böyük elmi işçi – 1 yer*

***Folklorşünaslıq şöbəsi***

*Böyük elmi işçi – 1 yer*

**Təbii Ehtiyatlar İnstitutu üzrə:**

***Mineral xammalın kimyası və texnologiyası laboratoriyası***

*Böyük elmi işçi – 1 yer*

***Sorbsiya prosesləri laboratoriyası***

*Aparıcı elmi işçi – 1 yer*

**Bioresurslar İnstitutu üzrə:**

***Dənli, taxıl, paxlalı və texniki bitkilər laboratoriyası***

*Böyük elmi işçi – 1 yer*

***Nəbatat şöbəsi***

*Elmi işçi – 1 yer*

***Bitki sistematikası şöbəsi***

*Aparıcı elmi işçi – 1 yer*

*Böyük elmi işçi – 1 yer*

***Biokimyəvi tədqiqatlar laboratoriyası***

*Aparıcı elmi işçi – 1 yer*

***Zooloji tədqiqatlar şöbəsi***

*Aparıcı elmi işçi – 1 yer*

Müsabiqədə yerlərə uyğun olaraq, elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Az – 7000, Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 76.***
***AMEA Naxçıvan Bölməsi Təhsil və kadrlar şöbəsi***
***Telefon: 545-16-80; 544-65-97***

## AMEA Naxçıvan Bölməsi elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş olan şöbə müdiri və laboratoriya rəhbəri vəzifələrini tutmaq üçün müsabiqə elan edir

**Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə:**

***Antik və orta əsrlər arxeologiyası şöbəsi***

*Şöbə müdiri – 1 yer*

***Etnoqrafiya şöbəsi***

*Şöbə müdiri – 1 yer*

**Təbii Ehtiyatlar İnstitutu üzrə:**

***Mineral xammalın kimyası və texnologiyası laboratoriyası***

*Laboratoriya rəhbəri – 1 yer*

***Sorbsiya prosesləri laboratoriyası***

*Laboratoriya rəhbəri – 1 yer*

***Avtomatlaşdırma və seysmologiya laboratoriyası***

*Laboratoriya rəhbəri – 1 yer*

**Bioresurslar İnstitutu üzrə:**

***Dənli, taxıl, paxlalı və texniki bitkilər laboratoriyası***

*Laboratoriya rəhbəri – 1 yer*

Müsabiqədə yerlərə uyğun olaraq, elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Az – 7000, Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 76.***
***AMEA Naxçıvan Bölməsi Təhsil və kadrlar şöbəsi***
***Telefon: 545-16-80; 544-65-97***

## Qızıl cütün qiyməti



***Şərqin böyük təfəkkür sahibi filosofların qibtə etdiyi Bəhlul Danəndənin fikirlərindən çoxları xeyir tapmışdır. Yaddaşlarda yaşayan budur ki, onun Danəndə və Divanə ləqəbləri olmuşdur. Hər kəs Bəhlul Divanə deyə bir məsləhətlə müraciət etdikdə ona divanəlik, Danəndə dedikdə xeyirxahlıq yolu göstərmişdir. Bağdad xəlifəsinin qardaşı olsa da, özünəməxsus yolu olmuşdur.***

Rəvayətdir ki, Bağdad xəlifəsi xalis qızıldan bir yerşumlayan cüt düzəltdiribmiş. Elan vermişdir ki, hər kim bu cütün qiymətini dürüst tapa bilsə, cütü həmin şəxsə bağışlayacaq. Hər cür yozum edilsə də, qızıl cütün qiymətini dürüst tapan olmamışdır. Bir füqarə gəlib kasıblığın daşını atmaqda Bəhluldan danəndəlik yolunu təvəqqe edir. Bəhlul deyir:

– Mənim adımı verməyəcəksənsə, deyə bilərəm.

Belə də razılaşırlar. Bəhlul Danəndə deyir:

– Get, elçi daşının üstündə otur, xəlifə səni qəbul edəcək. Qızıl cütün qiymətini soruşanda de ki, bu cütün qiyməti yazla yayın qovuşacağındakı bir cahankeş yağışın qiymətidir. Bu yağışdan taxıl zəmiləri dənov suyuna elə dolar ki, buğdalar, arpalar çaqqala kimi olar. Soruşsa, niyə cahankeş yağış, onu da de ki, narın yağış, ağ yağış, şıdırğı yağış tez kəsər. Leysan yağış isə ziyan verər. Amma cahankeş yağış bütün məmləkətləri tutar, özü də gec kəsər. Həmin şəxs bu yolla qızıl cütə sahib çıxır.

Dünyanın bu dəyişən qlobal, ekoloji vəziyyəti, iri dövlətlərin bəhsəbəs texnologiya yarışları ən dözümlü ağacları su kənarlarında da qurudur. İqlim dəyişmələri canlı təbiətə ciddi ziyan vurur. Elə ulu Naxçıvan torpağında da qışın sərt gəlişi, çiçəkli yaza qəfil boranlı qış gəlməsi bir çox meyvələrə uşaq-böyüyü tamarzı qoydu. Yaxşı ki, taxıl əkinləri yerindədi. Yazla yayın arasındakı zaman kəsiyində bu yağışlar istər sulu, istərsə də dəmyə sahələrdəki əkinləri cana gətirir. Bu yağışların dəmyə sahələrdə əkilən taxıllara daha çox xeyri var. Atalar sözüdü: *"Dəmyənin dəhnəsi göydədir, yağdısa, suyu gələcək"*. Ağsaqqallar onu da deyiblər ki, dəmyənin tanrısı birdi, sulu sahələrin tanrısı ikidi.

Hazırda hər yerdə taxıl biçininə qızğın hazırlıq işləri gedir. Bəzi yerlərdə artıq biçinə başlanılıb.

Toxumluq sahələrin məhsulu ayrıca tədarük olunacaq. Gərək minbir zəhmətlə hasilə gətirilən taxıla və ən başlıcası, bişirilən çörəyə hörmətlə yanaşaq. Bu müqəddəs nemətin hər tikəsinin qədrini bilək. Çörəyi təmizlik qutularına atmayaq. Uşaq yaşlarımdan yadımda qalan budur ki, yolda bir tikə çörək qırıntısına rast gəldikdə onu yerdən götürüb, üç dəfə öpərək alına çəkib bir səki üstə qoyaraq deyərdilər:

– İlahi, bu da qurdun, quşun payı.

Ta onu ayaqlayıb keçməzdilər. Çörəyin müqəddəsliyi "Qurani-Kərim"lə bir tutulur. Gəlin hamılıqla rəncbərin əl qabarına, alın tərinə hörmət qoyaq. Əgər diqqət yetirsək, dənə dolan sünbüllü zəmilər dəniz tək dalğalanır. Əkinçi zəhmətinin hünəri bir təbiət lövhəsi yaradıb:

*Zəmilərdə süslənən*
*Sünbülə dən düşübdür.*
*Necə də təkcə-təkcə*
*Bir-bir, dən-dən düşübdür.*

*Elə bil zəhmət təri*
*Yanaqdan üzülübdür,*
*Gəlib mirvarilər tək*
*Sünbüldə düzülübdür.*

**Qaşdar ƏLİYEV**

**Bildiriş**

"Su" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200149951) fəaliyyətinə xitam verildiyindən vergi qeydiyyatı ləğv olunur.

* * *

"Artezian-1" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200356631) fəaliyyətinə xitam verildiyindən vergi qeydiyyatı ləğv olunur.

* * *

"Artezian-2" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200356761) fəaliyyətinə xitam verildiyindən vergi qeydiyyatı ləğv olunur.

* * *

"Su-Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200315481) fəaliyyətinə xitam verildiyindən vergi qeydiyyatı ləğv olunur.

* * *

"Artezian" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200281681) fəaliyyətinə xitam verildiyindən vergi qeydiyyatı ləğv olunur.

***İtmişdir***

Məmmədova Laidə Əbülfəz qızının adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Məmmədli Fidan Orxan qızının adına verilmiş doğum haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin kollektivi bölmənin rəhbəri Sabir Məmmədova, əzizi **AYDIN MƏMMƏDLİNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin İngilis dili kafedrasının əməkdaşları İsmayıl Gülməmmədova, qohumu **MUSTAFANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aybəniz Babayeva və şöbənin kollektivi Babək Rayon Uşaq Musiqi Məktəbinin müəllimi **AYDIN MƏMMƏDLİNİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov və kollecin kollektivi iş yoldaşları **AYDIN MƏMMƏDLİNİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından Mirhəsən Eminov, Tofiq Nəcəfov Valeh və Nəzmi Vəliyevlərə, əzizləri **SƏXAVƏT XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 534